MOORE STEPHENS
AZERBAIJAN

# AZƏRBAYCAN RESPUBLİKASI MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMİSSİYA

## 31 Dekabr 2012-ci il tarixinə bitən il üzrə Müstəqil Mühasiblərin Hesabatı





**İYUN 2013**

**MÜNDƏRİCAT**


| | **Səhifələr** |
|---|---|
| Akronimlər və ixtisarlar | ***3*** |
| Müstəqil Mühasiblərin Hesabatı | ***4*** |
| Rəy | ***5*** |
| Əsas icmal | ***6*** |
| Hesabatın məqsədi və işin həcmi | ***7*** |
| Metodologiyanın təsviri | ***9*** |
| Hökumət və Hasilat Şirkətlərinin Hesabatlarının xülasəsi | ***12*** |
| Qeydlər | ***13*** |
| Hökumətvə Hasilat Şirkətlərinin Hesabatlarının düzəliş edilmiş xülasəsi | ***21*** |
| 2010, 2011və 2012-ci il hesabatlarının müqayisəli təhlili | ***22*** |
| Üzləşmə prosesinin təkmilləşdirilməsi üçün tövsiyələr və qeydlər | ***23*** |

| | |
|---|---|
| ƏLAVƏ 1: Azərbaycan Respublikası Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü üzrə Komissiyanın Bəyannaməsi | ***26*** |
| Əlavə 2: Qarşılıqlı Anlaşma Memorandumunun tərəfi olan Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Şirkətlərinin Siyahısı | ***27*** |
| Əlavə 3: Qarşılıqlı Anlaşma Memorandumunun üzvü olan Qeyri-Hökumət Təşkilatlarının və Fiziki Şəxslərin Siyahısı | ***28-31*** |

# AKRONİMLƏR VƏ İXTİSARLAR

| | TƏYİNATI |
|---|---|
| **MHŞT** | Mineral Ehtiyatlarin Hasilati Ilə Məşğul Olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü |
| **Komissiya** | Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası |
| **Şirkətlər** | Hasilat sənayesi şirkətləri |
| **QAM** | Qarşılıqlı Anlaşma Memorandumu |
| **ŞT** | Şərtlər Toplusu |
| **Hökumət** | Azərbaycan Hökuməti |
| **MHŞT Katibliyi** | Azərbaycanın MHŞT üzrə Katibliyi |
| **ABŞ dolları** | Amerika Birləşmiş Ştatları dolları |
| **AZN** | Azərbaycan manatı |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **ARDNŞ** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| **ABƏŞ** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| **HPBS** | Hasilatin Pay Bölgüsü Sazişləri |
| **Min $m^3$** | Min kub metr |
| **Nemb** | Neft hasilatının milyon barreli |
| **$m^3$** | Kub metr |
| **$Nm^3$** | Normal kub metr |
| **Sm3** | Standart kub metr |

## MÜSTƏQİL MÜHASİBLƏRİN HESABATI

**Azərbaycan Respublikası Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyaya:**

Biz, MHŞT üzrə Komissiyanın ("Komissiya") bəyannaməsinin (bax: Əlavə 1) yoxlamasını həyata keçirərək müəyyən etdik ki, 31 dekabr 2012-ci il tarixində başa çatan il ərzində Azərbaycan Respublikası Hökumətinin ("Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən ("Şirkətlər") aldığı ödənişlərin/ayırmaların cədvəli MHŞT üzrə Komissiya, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax Əlavə 2) və qeyri-hökumət təşkilatları və fiziki şəxslərin daxil olduğu Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (bax: Əlavə 3) arasında 24 noyabr 2004-cü il tarixində imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("QAM") uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası bəyannaməyə görə cavabdehdir. Bizim cavabdehliyimiz yoxlama əsasında Bəyannamə üzrə rəy ifadə etməkdir.

Aşağıdakı paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamanı Əminlik Yoxlamaları üzrə Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq və müvafiq olaraq Komissiyanın Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və bizim şərtlərdə vacib hesab etdiyimiz bu kimi başqa prosedurları həyata keçirmişik. İnanırıq ki, yoxlamamız rəyimizin əsaslı olmasını təmin edir.

Komissiya Bəyannaməsini yoxlamaq üçün əldə olunan məlumat QAM-ın üzvü olan Şirkətlərin yazılı təqdimatından və Hökumətin aldığı ödənişlər/ayırmalara dair Komissiya tərəfindən təqdim edilən təfsilatlı hesabatlardan ibarət olmuşdur. Bizim yoxlamamız Hökumətin aldığı bütün ödənişləri/ayırmaları və Şirkətlərin etdiyi bütün ödənişləri/ayırmaları əhatə etməyib. Əgər Şirkətlər ödənişlər/ayırmalar həyata keçiribsə, lakin bu öz əksini nə Hökumətin, nə də Şirkətin təqdimatında tapmayıbsa, bizim yoxlamamız onları aşkar etmək üçün yetərli deyildir.

### İcra olunmuş işin xülasəsi

Komissiyanın Hesabatını (Əlavə 1) yoxlamaq üçün biz 31 dekabr 2012-ci il tarixində başa çatan il ərzində Hökumətin aldığı ödənişlərin/ayırmaların cədvəlinin (bax "Hökumətin cədvəli") QAM üzvü olan Şirkətlər tərəfindən hazırlanmış və Əlavə 2-də verilmiş cədvəllərlə ("Şirkətlər cədvəli") müqayisəsini aparmışıq. Yuxarıdakı cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək üçün biz şəraitin tələb etdiyi zəruri prosedurları həyata keçirmişik. Biz nümunə seçimi üzrə Hesabat Şablonlarında qeyd edilən məbləğlərin yoxlanılmasında alternativ əminlik nümayiş etdirmişik. Bura dörd hasilat sənaye şirkətlərindəki prosedurlar qeyd oluna bilər. Əldə olunmuş nəticələr 12-19-cu səhifələrdə təqdim edilmiş qeydlərdə öz əksini tapmışdır.

**RƏY**

Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/ayırmaların və Hökumət tərəfindən qəbul olunan bütün ödənişlərin/ayırmaların yoxlanmasını apardığımız zaman edilməsi zəruri olan hər hansı mümkün düzəlişlər (əgər olmuşsa) istisna olmaqla, bu hesabatda öz əksini tapmış yoxlamamıza əsaslanaraq verdiyimiz rəy belədir: 31 dekabr 2012-ci il tarixində başa çatan il ərzində qəbul olunmuş ödənişlərin/ayırmaların cədvəli ilə bağlı Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyasının Bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmışdır.

Moore Stephens Yarbenyan

10 iyun 2013-cü il

## ƏSAS İCMAL

Neft, qaz və mineral ehtiyatlarla zəngin olan bir çox ölkələrdə yoxsulluq, mübahisə və korrupsiya halları müşahidə olunur. “Resurs lənəti” adlanan bu hal çox vaxt şirkətlərin hökumətə təqdim etdiyi ödənişlər və hökumətin şirkətlərdən daxilolmaları sahəsində şəffaflıq və hesabatlılığın çatışmazlığı ilə səciyyəvi olur. MHŞT məhz bu sahədə çatışmayan şəffaflıq və hesabatlılığın təmin edilməsinə yönəldilmiş bir təşəbbüsdür. MHŞT şirkətlər, hökumətlər, sərmayəçilər və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən dəstəklənən könüllü təşəbbüsdür. Dövlət büdcəsində şəffaflığın təmin edilməsi sahəsində digər cəhdlərlə yanaşı MHŞT, həmçinin vətəndaşların öz hökumətlərindən büdcə gəlirlərinin istifadəsinə dair açıqlama verməsinə nail olduğu bir prosesdir.

MHŞT 2002-ci ildə Dayanaqlı İnkişaf üzrə Dünya Sammitində bəyan edilmişdir. MHŞT təbii ehtiyatlarla zəngin ölkələrdə neft, qaz və mədən sənayesi şirkətlərinin hökumətə edilən ödənişləri və hökumətin əldə etdiyi gəlirlərinin ictimaiyyətə tam açıqlanması və yoxlanılması yolu ilə təkmilləşdirilmiş idarəetməni dəstəkləyir. MHŞT hasilat sənayesində şəffaflıq üzrə beynəlxalq brend kimi tanınır. Azərbaycan bu təşəbbüsə 2003-cü ildə qoşulmuşdur. Azərbaycanda mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərin hökumətə ödənişləri və hökumətin şirkətlərdən daxilolmaları barədə məlumatların müntəzəm olaraq ictimaiyyətə açıqlanması, tutuşdurulması və dərc edilməsi təmin edilmişdir. 2005-ci ildə Azərbaycan MHŞT üzrə ilk hesabatı açıqlamışdır. 31 Dekabr 2012-ci ildə bitən ili əhatə edən MHŞT hesabatı sayca 17-cidir

27 Sentyabr 2007-ci ildə “MHŞT Namizədi” statusunu almış Azərbaycan, 16 Fevral 2009-cu il tarixindən, artıq “MHŞT üzrə tam hüquqlu üzv” statusuna malikdir.

## HESABATIN MƏQSƏDİ VƏ İŞİN HƏCMİ

Tapşırıq Moore Stephens Azərbaycan şirkəti tərəfindən Azərbaycan MHŞT üzrə Katiblik tərəfindən buraxılmış Şərtlər Toplusuna (ŞT) uyğun həyata keçirilmişdir. ŞT əsasən tapşırıq 31 Dekabr 2012-ci bitən il üzrə hesabatın üzləşdirilməsindən ibarət olmalıdır.

***Məqsəd:***
Müstəqil Mühasiblərin məqsədi Şirkətlər tərəfindən Hökumətə edilmiş ödənişləri/ayırmaları və Hökumət tərəfindən qəbul edilmiş ödənişləri/ayırmaları yığmaq, nəzərdən keçirmək və üzləşdirməkdən ibarətdir.

***Uçot siyasəti:***
2012-ci il ərzində Şirkətlər tərəfindən faktiki ödənişlər/ayırmalar və Hökumətin daxilolmalarının üzləşməsi hesabatının hazırlanması uçotun kassa metodu əsasında həyata keçirilmişdir.

***Valyuta:***
Hesabatın valyutası xarici şirkətlər üçün Amerika Birləşmiş Ştatları dolları (ABŞ dolları), yerli şirkətlər üçün Azərbaycan manatı (AZN)-dir.

***Əhəmiyyətlilik dərəcəsi:***
Azərbaycanda mədən hasilatı ilə məşğul olan bütün xarici və yerli şirkətlər tərəfindən Azərbaycan dövlətinə köçürülən gəlirlər üzrə (natura və dəyər ifadəsində) əhəmiyyətlilik həddinin müəyyən edilməsi aşağıdakı iki səviyyədə baş verir:

❖ Hesabata daxil edilən əhəmiyyətli gəlir mənbələrinin müəyyən edilməsi;

MHŞT üzrə Çoxtərəfli Qrup tərəfindən əhəmiyyətli sayılan gəlir mənbələri aşağıdakı kimi müəyyənləşdirilib:

- neft hasilatı üzrə natura və dəyər ifadəsində,
- təbii və səmt qazı natura və dəyər ifadəsində,
- əsas və qiymətli metallar üzrə natura və dəyər ifadəsində,
- mənfəətdən vergi,
- imzalanma və digər bonuslar,
- akr ödənişləri və tranzit haqları,
- royalti, əlavə dəyər vergisi, torpaq vergisi, əmlak vergisi, qiymət fərqi və sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla).

Bu gəlir mənbələri dövlətin mədən hasilatından əldə edilən gəlirlərinin 99 faizindən çoxunu (99.99%-ni) əhatə edir.

2. Hər müəyyən edilmiş gəlir mənbəyi üzrə əhəmiyyətli sayılan məbləğ/həcm həddi.

Göstərilmiş gəlir mənbələri üzrə Azərbaycan hökumətinə sıfırdan (0-dan) yuxarı məbləğdə/həcmdə daxilolmalar əhəmiyyətli sayılır.

**Azərbaycan MHŞT Üzləşmə prosesinin Mərhələləri**

Üzləşmə prosessi zamanı müxtəlif mərhələlər və fəaliyyət növləri əhatə olunur:

**1. İlkin mərhələ**

Bu, məlumatların toplandığı ilkin mərhələdir:

- Əməliyyatlar haqqında anlayışın əldə edilməsi;
- Tağşırığın düzgün perspektivdə təhlilinin aparılması;
- Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayə sahələrində fəaliyyət göstərən Şirkətlərin ödənişləri və Hökumətə daxilolmalar haqqında məlumatların toplanması.

**2. Üzləşmə mərhələsi:**

Tağşırığın ən mühüm hissəsi olan üzləşmə mərhələsində aşağıdakı fəaliyyətlər həyata keçirilir:

- Sənədlərin yoxlanılması;
- Hasilat sənayesində çalışan şirkətlərin ödənişlərinin və Hökumətin gəlirləri haqqında hesabatların toplanması, müqayisəsi və analizi;
- Məlumatların toplanması və üzləşdirilməsi.

**3. Əminlik mərhələsi:**

Bu mərhələ, əminlik dərəcəsinin artırılması üçün seçim üsulu əsasında icra olunur. Aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir.

- Hasilat şirkətləri siyahısından seçim üsulu ilə şirkətlərin seçilməsi.
- Yoxlama zamanı seçilmiş şirkətlərdə ilkin təsdiqedici sənədlərin nəzərdən keçirilməsi.
- İcra olunmuş işin yekunlaşması barədə nəticənin yazılması.

**4. Rəy mərhələsi:**

Bu mərhələ zamanı aşağıdakılar həyata keçirilir:

- Hesabatın Komissiya üzvlərinə təqdim edilməsi;
- Yekun hesabata dair tövsiyələr;və
- Hesabatın ictimaiyyətə təqdimatı.

## METODOLOGIYANIN TƏSVİRİ:

Bizim yanaşmamız mütəmadi məsləhətlər vasitəsilə Şirkətlər və Hökumət arasında və qalan bütün tərəflər arasında davamlı danışıqlar və qarşılıqlı əlaqələrin olmasından əmin olmaq idi. Bu proses əmin etməli idi ki, bütün məsələlər və suallar qısa zaman ərzində ünvanlasın və Müstəqil Üzləşmənin məqsədləri mərkəzi mərhələsinə keçsin. Bizim hesabat yalnızca Şirkətlərdən və Hökumətdən aldığımız faktiki məlumatların şərhindən ibarətdir.

**Müstəqil Mühasibin əsas vəzifələrinə aşağıdakı mühüm məsələlər daxildir:**

***HESABAT ŞABLONLARININ PAYLANMASI:*** Bu tapşırıq əmin edir ki, Hesabat Şablonlarının doldurulmasını tələb edən bütün Şirkətlər və Hökumət, son Hesabat Şablonlarını əldə etmişlər və bir birinin tələblərindən xəbərdardılar. Belə razılaşdırılmışdır ki, MHŞT üzrə Katiblikdən gələn məktub Hesabat Şablonlarının paylanmasını müşaət edərdi.

***MÜVAFİQ ŞİRKƏTLƏRLƏ VƏ HÖKUMƏTLƏ MƏSƏLƏLƏRİN İZLƏNMƏSİ:*** Bu tapşırıq sualların aydınlaşdırılmasını və işin təhvil verilmə vaxtına riayət edilməsini əmin etmək üçün Şirkətlərlə və Hökumət ilə danışıqlardan ibarətdir.

- MHŞT üzrə Katiblikdən, Hesabat Şablonlarının bütün Şirkətlərə paylanması barədə təsdiq sənədi aldıqdan sonra biz, yoxlama işlərimizə başlamaq üçün əsas əlaqədar şəxslərin siyahısını tələb etdik.

- İlk işimiz Hesabat Şablonlarının alınmasından əmin olmaqdır.Əks halda, biz MHŞT üzrə Katibliyə bildirmişik ki, Hesabat Şablonunu almayan Şirkətlərə və Hökumətə onun paylanmasından əmin olsun.

***MƏLUMATLARIN TOPLANMASI:*** Bu mərhələyə doldurulmuş Hesabat Şablonlarının və təsdiqedici sənədlərin toplanması daxildir.

- Hesabat Şablonlarının tamamlanması üçün son tarix hər il mart ayının 15-də MHŞT üzrə Katiblik tərəfindən müəyyən edilmişdir. Əlavə olaraq, biz MHŞT üzrə Katiblikdən Şirkətlərə Hesabat Şablonlarınının təqdim olunmasının vacibliyini bildirməkdə kömək etmələrini xahiş etmişdik.

- Prosesin uzanmaması üçün və bizim Yekun Hesabatımızın tələb olunan vaxt kəsiyində hazır olmasını təmin etmək üçün, əlimizdə olan məlumatları istifadə edərək üzləşmə prosesinə başladıq və eyni zamanda MHŞT üzrə Katiblik ilə birgə əməkdaşlığımızı davam edərək cavabını almadığımız Şirkətlərdən Hesabat Şablonlarını topladıq.

- **Şirkətlərin ödənişləri**

  Bütün ödənişlərin qeyd olunduğu Hesabatları Şirkətlərdən aldıq. Hesabat Şablonları MHŞT Azərbaycan tərəfindən hazırlanmışdır və bütün növ ödənişləri əhatə etmişdir. Texniki göstəricilərlə birlikdə təlimatlar, Hesabat Şablonlarına əlavə edilmişdir.

- **Hökumətə daxilolmalar**

  Biz müxtəlif Dövlət qurumlarından hesabatlar aldıq:

  - Azərbaycan Respublikası Dövlət Neft Fondu;
  - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti;
  - Azərbaycan Respublikası Vergilər Nazirliyi;
  - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

***TAPINTILAR VƏ UYĞUNSUZLUQLAR:*** Bu iş Şirkətlər və Hökumət tərəfindən təqdim olunan bütün məlumatların bir yerə toplanmasını və fərqlərin tapılmasını əhatə edirdi.

- Tamamlanmış Hesabat Şablonları üzrə təhlilimizi asanlaşdırmaq məqsədilə hər bir Şirkət üçün verilənlər bazası yaratdıq, bütün Hesabat Şablonlarının ödənişlərini və Hökumətin gəlirlərini göstərdik.

- Şirkətlərdən və Hökumətdən məlumatı alan kimi ödənişləri və gəlirləri sonrakı təhlillərimiz üçün verilənlər bazasına əlavə etdik.

- Bütün məlumatları alandan sonra biz Şirkətlərin ödəniş/ayırmaları və Hökumətin daxilolmaları arasında uyğunsuzluqları tapmaq üçün müqayisə apardıq.

***UYĞUNSUZLUQLAR***: Hər hansı bir fərq tapılan kimi müvafiq Şirkətlərlə və Hökumətlə əlaqə saxlayıb bu uyğunsuzluqları üzləşdirmək üçün əlavə izahat və təsdiqedici sənədlər istədik.

- Məlumat bazasından istifadə edərək fərqləri araşdırmaq üçün hansı növ əlavə məlumata ehtiyacımız olduğunu müəyyən etdik.

- Biz bütün Şirkətlərə və Hökumətə aşkar olunan uyğunsuzluqların üzləşdirilməsi üçün lazım olan təsdiqləyici sənədlərin təqdim olunmasının vacibliyini izah edərək onlardan əlavə məlumatı təqdim etmələrini xahiş etdik.

- Əgər əlavə təsdiqləyici sənədlər uyğunsuzluğun üzləşdirilməsi üçün münasib deyilsə və ya heç bir əlavə sənəd təqdim olunmursa, biz bu fərqi “qeyri-müəyyən/izah olunmayan uyğunsuzluq” kimi hesab edirik:

***Biz detallı şəkildə yoxlamaq üçün 4 Hasilat Şirkətini seçdik.***

Biz Üzləşmə prosesinə cəlb olunan əməliyyatlar barədə əsaslı əminlik əldə etmək üçün müəyyən attestasiya prosedurları apardıq. Nümunə kimi əlavə prosedurlar nümayiş etdirən və Üzləşmə prosesində iştirak edən şirkətlər arasında seçim etdik.

Seçmə əməliyyatını həyata keçirmək üçün bir sıra yollar vardır*:*

- Bütün mövcud göstəricilərin seçilməsi (100% yoxlama)
- Müvafiq xüsusiyytlərinə görəgöstəricilərinseçilməsi
- Statistik seçim

Biz dörd hasilat şirkətini seçdik vəbu şirkətlərə aid olan bütün əməliyatları (yəni, 100% yoxlama) yoxladıq.

Biz hesabatlarda qeyd olunan məbləğləri aşağıda göstərilən ilkin təsdiqedici sənədlərə əsasən yoxladıq:

- Bank sənədləşməsi: Bank Hesabatı və Ödəniş tapşırıqları
- Vergi sənədləşməsi: Mənfəət vergisi üzrə ödəniş daxilolmaları
- Səmt və Təbii Qaz üçün aylıq Qəbul aktı; və
- Digər lazımi sənədlər

Şirkətlər tərəfindən göstərilən məbləğlərin əsaslı əminliyini əldə etdik. Həyata keçirilmiş iş əsasında belə bir nəticəyə gəldik ki, prosedurun məqsədi yerinə yetirilmişdir.

## HÖKUMƏT VƏ ŞİRKƏTLƏRİN HESABATLARININ XÜLASƏSİ;

| Xarici Hasilat Şirkətləri | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hökumətin Hesabatı | | | | | Xarici Hasilat Şirkətlərinin Hesabatı | | | | | Fərq | | | | | Qeydlər |
| | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | |
| | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | |
| **Neft hasilatı üzrə pul vəsaiti** | 73.0 | | | | | 86.6 | | | | | (13.6)* | | | | | **1** |
| **Qaz hasilatı üzrə pul vəsaiti** | 365.5 | | | | | 365.5 | | | | | - | | | | | **2** |
| **Xam neft** | | | 160.8 | | | | | 161.3 | | | | | (0.5) | | | **3** |
| **Səmt qazı** | | | | 3,513,137.7 | | | | | 3,592,478.0 | | | | | (79,340.3) | | **4** |
| **Təbii qaz** | | | | 6,489.3 | | | | | 6,489.3 | | | | | - | | **5** |
| **Qızıl** | | | | | 6.6 | | | | | 6.1 | | | | | 0.5 | **6** |
| **Gümüş** | | | | | 6.4 | | | | | 6.4 | | | | | - | **7** |
| **Bonuslar** | 2.0 | | | | | 1.0 | | | | | 1.0 | | | | | **8** |
| **ARDNF-a Nəqletmə tarifi** | 10.0 | | | | | 3.5 | | | | | 6.5 | | | | | **9** |
| **Akrhesabı ödənişlər** | 3.8 | | | | | 2.8 | | | | | 1.0 | | | | | **10** |
| **Mənfəət vergisi** | 1,829.8 | | | | | 1,810.6 | | | | | 19.2 | | | | | **11** |

| Yerli Hasilat Şirkətləri | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hökumətin Hesabatı | | | | | Yerli Hasilat Şirkətlərinin Hesabatı | | | | | Fərq | | | | | Qeydlər |
| | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | |
| | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | |
| **Royalti** | | 122.8 | | | | | 122.8 | | | | | - | | | | **12** |
| **Mənfəət vergisi** | | 90.3 | | | | | 222.3 | | | | | (132.0) | | | | **13** |
| **Digər vergilər** | | 112.4 | | | | | 112.3 | | | | | 0.1 | | | | **14** |
| **Qiymət fərqi** | | 345.8 | | | | | 345.8 | | | | | - | | | | **15** |

*Mötərizə ümumi məbləğin azalmasını əks etdirir.

## QEYDLƏR

### Xarici Şirkətlərin hasilatında Hökumətin payı

**Qeyd 1** ***Xarici Şirkətlərin neft hasilatı həcmində pul şəklində Hökumətin payı***

Bu, Hökumətin neft hasilatında xarici Şirkətlərin Hökumətə pul vəsaiti kimi köçürdükləri payını əks etdirir. Neft Hasilatı Şirkətləri Hökumətin payını Hasilatın Pay Bölgüsü Sazişlərinə (“HPBS”) uyğun olaraq, məhsul və ya pul vəsaiti şəklində köçürürlər.

| | | **milyon ABŞ dolları** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 73.0 | - | 73.0 |
| Şirkətlərin cədvəli | 86.6 | (13.6) | 73.0 |
| **Fərq** | **(13.6)** | **(13.6)** | **-** |

13.6 milyon ABŞ dollar məbləğində yaranmış fərq bir xarici hasilat şirkəti tərəfindən edilmiş yuvarlaqlaşdırma səhvini və digər bir başqa hasilat şirkətinin ARDNŞ-ə etdiyi köçürməni göstərir, hansı ki, bu hesabata daxil edilməli deyildi. Rəqəmlər, müvafiq təsdiqedici sənədlər vasitəsilə təsdiqləndi. Onlar şirkətlərin cədvəlindən çıxarılmalıdır.

**Qeyd 2** ***Xarici Şirkətlərin qaz hasilatı həcmində pul şəklində Hökumətin payı***

Bu, Hökumətin qaz hasilatında xarici Şirkətlərin Hökumətə pul vəsaiti kimi köçürdükləri payını əks etdirir. Qaz Hasilatı Şirkətləri Hökumətin payını Şah Dəniz HPBS-ə uyğun olaraq pul vəsaiti şəklində köçürürlər.

| | | **milyon ABŞ dolları** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 365.5 | - | 365.5 |
| Şirkətlərin cədvəli | 365.5 | - | 365.5 |
| **Fərq** | **-** | **-** | **-** |

Fərq tapılmamışdır.

**Qeyd 3** ***Xam neft***

Bu, Hökumətə məhsul şəklində köçürülən və xarici Şirkətlərin neft hasilatında Hökumətə məxsus payı əks etdirir.

| | | **milyon barel** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 160.8 | - | 160.8 |
| Şirkətlərin cədvəli | 161.3 | (0.5) | 160.8 |
| **Fərq** | **(0.5)** | **(0.5)** | **-** |

0.5 milyon barel məbləğində yaranan fərq iki şirkət tərəfindən (0.4 və 0.1 milyon barel) səhvən daxil edilmişdir. Bu da ARDNŞ-in kommersiya fəaliyyətinə aid olunduğuna görə MHŞT hesabatında açıqlanmamalıdır. Bu fərqi əlaqədar şirkətdən təsdiqedici sənədlər və ARDNŞ-dən aldığımız əlavə məlumata əsasən yoxladıq.

**Qeyd 4** ***Səmt Qazı***

Bu, istifadə edilməkdə olan neft yataqlarından hasil edilən səmt qazını əks etdirir. Səmt qazı Hökumətlə olan razılaşmaya əsasən təmənnasız köçürülür.

| | | **kub metr (min)** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **Yekun** |
| Hökumətin cədvəli | 3,513,137.7 | - | 3,513,137.7 |
| Şirkətlərin cədvəli | 3,592,478.0 | (79,340.3) | 3,513,137.7 |
| **Fərq** | **(79,340.3)** | **(79,340.3)** | **-** |

Bu fərq müxtəlif şirkətlər tərəfindən yaranmışdır və aşağıdakı kimi izah edilir:

Hökumət, bir xarici hasilat şirkətindən aldığı qazın həcmini 3,418,265.7 min kub metr kimi göstərmişdir, xarici şirkət tərəfindən hesabata daxil edilən müvafiq göstərici isə 3,497,701.0 min kub metr olmuşdur. Xarici şirkətdən aldığımız məlumata əsasən bu fərqin yaranma səbəbləri aşağıdakılardır:

**kub metr(min)**

Sənqəçal Terminalı həcminin $Nm^{3}$-ə konvertasiyası zamanı xarici şirkətlərin biri tərəfindən texniki səhv baş vermişdir; belə ki,. rəqəmlər (1.07322) amilinə bölünməsi əvəzinə vurulmuşdur. Beləliklə, Sənqəçal Terminalının səmt qazı üçün olan doğru rəqəm 2,667,659.772$Nm^3$ və ümumi həcm isə 3,196,498.648 $Nm^3$ təşkil edir.

Hesabatdakı məbləğ – 3,497,701.0
Düzəldilmiş məbləğ – 3,196,498.7
Fərq – (301,202.3) (301,202.3)

**Səngəçal Terminalına çatdırılan qazın həcmi**

Bu fərqin yaranma səbəblərinin əsasını tərəflərin müxtəlif ölçü vahidləri istifadə etməsidir: xarici hasilat şirkəti həcmi Normal Kub Metr-lə ($Nm^3$), 0°C-də, Hökumət isə Standart Kub Metr-lə ($Sm^3$), 20°C-də ölçmüşdür

Hökumət – 2,863,067.5 $Sm^3$
Şirkət – 2,667,736.9 $Nm^3$
Fərq – 195, 407.8 min $m^3$.

Konvertasiya əmsalı $Nm^3=Sm^3/1.07322$ istifadə edərək $Nm^3$-i $Sm^3$ çevirmək olar.Şirkətin $Nm^3$-i Hökumətin $Sm^3$ çevirdikdən sonra Səngəçal Terminalına çatdırılan qazın həcmi 3,025,101.4 min kub metr-ə bərabər olub həm şirkətdə, həm də hökumətdə eyni məbləğdir. 195,407.8

**Qeyd 4** ***Səmt Qazı (davamı)***

**Neft Daşlarına çatdırılan qazın həcmi**

| | |
|---|---|
| Bu fərqin yaranma səbəblərinin əsasını tərəflərin müxtəlif ölçü vahidləri istifadə etməsidir: xarici hasilat şirkəti həcmi Normal Kub Metr-lə ($Nm^3$), 0°C-də, Hökumət isə Standart Kub Metr-lə ($Sm^3$), 15°C-də ölçmüşdür.<br><br>Hökumət – 555,198.1 $Sm^3$<br>Şirkət – 528,838.9 $Nm^3$<br>Fərq – 26,359.3 min $m^3$.<br><br>Konvertasiya əmsalı $Nm^3$=$Sm^3$/1.05491 istifadə edərək $Nm^3$-i $Sm^3$ çevirmək olar. Həmçinin, bu fərqə nəqliyyat itkiləri və qazın həcminin müxtəlif vaxtlarda ölçülməsi səbəb olmuşdur. | 26,359.3 |
| | **(79,435.2)** |

Fərqi ARDNŞ və sözügedən şirkətdən aldığımız əlavə yazılı izahatlar əsasında təsdiq etdik.

1) Digər şirkətlər tərəfindən edilmiş səhvlərin təfsilatı aşağıdakı kimidir:

| | **kub metr (min)** |
|---|---|
| Xarici hasilat şirkətlərindən biri səmt qazına aid olanməbləği natamam şəkildə əlavə etmişdir. Şirkətdən aldığımız təfsilatlı məlumatı yoxlayaraq fərqi təsdiq edib Şirkətlərin cədvəlinə daxiletdik. | 95.9 |
| Bu fərq üç şirkət tərəfindən hesabat verilərkən yuvarlaqlaşdırma zamanı yaranmışdır. ARDNŞ-ə təhvil verilmiş qazın təhvil aktlarını və şirkətlərin aylar üzrə ARDNŞ-ə təhvil verdikləri qazın təhvil təfsilatını yoxlamaqla fərqi təsdiq etdik. | (1.0) |
| | **94.9** |

**Qeyd 5** ***Təbii Qaz***

Bu, qaz yataqlarından və ya istifadə edilməyən neft yataqlarından hasil edilən təbii qazı əks etdirir. Təbii qaz isə xarici şirkətlərin istehsal həcmində Hökumətin payıdır və Hökumətə məhsul şəklində köçürülür.

| | | **kub metr (min)** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 6,489.3 | - | 6,489.3 |
| Şirkətlərin cədvəli | 6,489.3 | - | 6,489.3 |
| | **-** | **-** | **-** |

Fərq tapılmamışdır.

**Qeyd 6** ***Qızıl***

Bu, xarici şirkətlərin istehsal həcmində Hökumətin qızıl payıdır və Hökumətə məhsul şəklində köçürülür.

| | | **unsiya (min)** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **Yekun** |
| Hökumətin cədvəli | 6.6 | (0.5) | 6.1 |
| Şirkətlərin cədvəli | 6.1 | - | 6.1 |
| **Fərq** | **(0.5)** | **(0.5)** | **-** |

Fərqin yaranmasına səbəb Hökumətin qızılı, qızılı mis konsentratı və misi mis konsentratı məbləğinə əlavə edərək bir ümumi məbləğ kimi göstərməsi olmuşdur. Biz Hökumət tərəfindən təqdim edilmiş məbləğə düzəlişlər elədik və təsdiqedici sənədləri əldə etdik.

**Qeyd 7** ***Gümüş***

Bu, Hökumətin gümüş istehsalı payının xarici Şirkətlərin gümüş istehsalı gəlirləri payına məhsul şəklində köçürülməsini əks etdirir.

| | | **unsiya (min)** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 6.4 | - | 6.4 |
| Şirkətlərin cədvəli | 6.4 | - | 6.4 |
| | **-** | **-** | **-** |

Fərq tapılmamışdır.

**Hökumətə mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici Şirkətlərdən digər daxilolmalar**

**Qeyd 8** ***Bonuslar***

Bonuslar neft şirkətləri tərəfindən hasilat hüquqlarının təhvil verilməsi və köçürülməsinə görə ödədiyi haqları əks etdirir. Bu haqlar Hökumətlə olan müvafiq razılaşmaya əsasən neft yataqlarının işlənməsinin müəyyən mərhələlərində ödənilir.

| | | **milyon ABŞ dolları** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 2.0 | - | 2.0 |
| Şirkətlərin cədvəli | 1.0 | 1.0 | 2.0 |
| **Fərq** | **1.0** | **1.0** | |

Bu fərq, bir hasilat şirkəti tərəfindən akrhesabı üçün ödənilmiş və səhvən bonus xanasında göstərilmiş 1 mln.ABŞ dolları dəyərindəki məbləği əks etdirir. (bax Qeyd 10). Qalan 2 mln ABŞ dolları dəyərindəki fərq isə digər bir hasilat şirkəti tərəfindən bonus xanasına daxil edilməmiş məbləği əks etdirir.

**Qeyd 9** ***Nəqletmə tarifləri***

Bu, neftin nəqli üçün xarici neft hasilatı şirkətlərinin ARDNF-ə Qərb Marşrutu Boru kəmərlərinin istifadə edilməsinə görə ödənilən nəqletmə tarifini əks etdirir.

| | | **milyon ABŞ dolları** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 10.0 | - | 10.0 |
| Şirkətlərin cədvəli | 3.5 | - | 3.5 |
| **Fərq** | **6.5** | **-** | **6.5** |

Hökumət cədvəlinə daxil edilən 6.5 milyon ABŞ dolları həcmində vəsait Hökumətin payına düşən neftin ötürülməsi üçün Hökumətin özü tərəfindən özünə ödənilmiş nəqletmə haqlarını əks etdirir. Hər ay Qərbi İxrac Boru Kəməri ilə nəql olunan neftə əsasən Podratçı tərəflər və Azərbaycan Respublikası Dövlət Neft Fondu (dövlətin payına düşən mənfəət nefti) Azərbaycan və Gürcüstan Respublikasının təyin etdiyi tarifi və boru kəmərinin ümumi fəaliyyət xərclərini (əməliyyat və kapital xərcləri) Azərbaycan Beynəlxalq Əm əliyyat Şirkətinə (ABƏŞ) ödəyir. ABƏŞ toplanmış ümumi məbləğdən Gürcüstan tərəfinin təyin etdiyi tarifi müvafiq qaydada ödəyir. ARDNF-ə isə yalnız Azərbaycan Respublikasının təyin etdiyi tarif əsasında ödənilən məbləğ daxil olur. Əm əliyyatın xüsusiyyətinə görə bu fərq daimidir. Biz AƏŞ v ə ARDNF-dən əsaslandırılmış izahat aldıqdan sonra Hökumətə ayrılmış ümumi vəsaitin məbləğini təsdiq etdik.

**Qeyd 10** ***Akrhesabı ödənişlər***

Bu, tədqiqat mərhələsində torpaq/dəniz sahələrinin istifadəsi üçün mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərinin ödədikləri rüsumları əks etdirir.

| | | **milyon ABŞ dolları** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 3.8 | - | 3.8 |
| Şirkətlərin cədvəli | 2.8 | 1.0 | 3.8 |
| **Fərq** | **1.0** | **1.0** | **-** |

Bu fərq xarici hasilat şirkətlərdən biri tərəfindən hesabatda bonus xanasında (Qeyd 8) təsdiq edilmişdir və şirkətlərin cədvəlinə daxil edilməlidir.

**Xarici hasilat şirkətləri tərəfindən Hökumətə ödənilən vergilər**

**Qeyd 11** ***Mənfəət vergisi***

Mənfəət vergisi Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin vergiyə cəlb edilən gəlirləri və gəlirdən çıxılan xərcləri (tutulmalar) arasında olan fərqdən tutulan vergidir.

| | | **milyon ABŞ dolları** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **yekun** |
| Hökumətin cədvəli | 1,829.8 | (1.5) | 1,828.3 |
| Şirkətlərin cədvəli | 1,810.6 | 17.7 | 1,828.3 |
| **Fərq** | **19.2** | **16.2** | **-** |

| | **milyon ABŞ dolları** |
|---|---|
| 5.7 milyon ABŞ dolları məbləğində yaranmış fərq şirkətlərdən birinin hasilat sənayesində çalışmayan müəssisəsinin mənfəət vergi ödənişini əksetdirir və ona görə də hesabatda əks edilməməlidir. Şirkətdən aldığımız izahat və təsdiqedici sənədlər əsasında fərqi təsdiq etdik. Məbləğ şirkətlərin cədvəlindən çıxarılmalıdır. | (5.7) |
| 42.5 milyon ABŞ dolları və 17.2 milyon ABŞ dolları məbləğində olan mənfəət vergisi iki xarici şirkətə aid olub səhvən hesabatda göstərilməmişdir. Müvafiq ödəniş sənədlərini yoxlayaraq məbləğləri təsdiq etdik. Fərq şirkətlərin cədvəlinə əlavə olunmalıdır. | 59.7 |
| 1.5 milyon ABŞ dolları məbləğində qeyd olunmuş fərq, hasilat şirkətlərinin biri tərəfindən ödənilmiş vergi öhdəliyinin (4.6) milyon ABŞ dolları məbləğində artıq göstərilməsi və digər bir hasilat şirkəti tərəfindən ödənilmiş vergi öhdəliyinin azaldılaraq 3.1 milyon ABŞ dolları şəklində göstərilməsinin cəmindən yaranan fərqdir. | (1.5) |
| 6.9 milyon ABŞ dolları məbləğində olan fərq 2012-ci ilin 4-cü rübü üçün hesablanan mənfəət vergisini əks etdirir və 2013-cü ildə ödənildiyinə görə də hesabatda əks olunmamalıdır. Fərq müvafiq dəstəkləyici sənədləri nəzərdən keçirərək təhlil edildikdən sonar təsdiq edildi. | (6.9) |
| 2.4 milyon ABŞ dolları məbləğində olan fərq bir xarici hasilat şirkətinin Azərbaycan Respublikasının Vergilər Nazirliyinə ödədiyi cərimələridir. Fərq müvafiq dəstəkləyici sənədləri nəzərdən keçirərək təhlil edildikdən sonar təsdiq edildi. | 2.4 |
| 31.8 milyon ABŞ dolları məbləğində olan fərq 2012-ci ilin 4-cü rübünü əks etdirərək 2013-cü ildə ödənildiyinə görə hesabatda əks olunmamalıdır. Fərq dəstəkəliyici sənədlərə əsaslanmışdır. (Azərbaycan Respublikasının Vergilər Nazirliyinə olan ödəniş sənədləri). | (31.8) |
| **Cəmi** | **16.2** |

**Yerli Şirkətlər tərəfindən Hökumətə ödənilən vergilər**

**Qeyd 12** ***Royalti***

Royalti (mədən işləri aparma hüququ vergisi) Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektoru daxil olmaqla) yeraltı qatlardan faydalı qazıntıların (mineral ehtiyatların) hasil olunmasına görə ödənilir.

| | | milyon AZN | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **Yekun** |
| Hökumətin cədvəli | 122.8 | - | 122.8 |
| Şirkətlərin cədvəli | 122.8 | - | 122.8 |
| | **-** | **-** | **-** |

Fərq tapılmamışdır.

**Qeyd 13** ***Mənfəət vergisi***

Mənfəət vergisi Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin vergiyə cəlb edilən gəlirləri və gəlirdən çıxılan xərcləri (tutulmalar) arasında olan fərqdən tutulan vergidir.

| | | milyon AZN | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **Yekun** |
| Hökumətin cədvəli | 90.3 | - | 90.3 |
| Şirkətlərin cədvəli | 222.3 | (132.0) | 90.3 |
| | **(132.0)** | **(132.0)** | **-** |

132.0 milyon ABŞ dolları yerli hasilat şirkətlərinin biri tərəfindən hesabata səhvən daxil edilmişdir. ARDNŞ-nin strukturuna daxil olan bəzi qurumların Dövlət Büdcəsi qarşısında borcu, digər qurumların isə artıq ödəməsi olmuşdur. Nazirlər Kabinetinin sərəncamına əsasən, qurumlar, qarşılıqlı hesablaşmalar vasitəsilə, öz aralarında olan öhdəliklərini azaltmağa və, eyni zamanda Dövlət Büdcəsinə olan artıq ödəmələri və büdcəyə olan borclarını tənzimləməyə, razılaşmışlar. Yaranan fərq MHŞT hesabatına daxil edilməməli və Şirkətin cədvəlindən çıxarılmalıdır. Biz dəstəkləyici sənədlərlə əsaslandırılmış izahatlar əldə edə bildik.

**Qeyd 14** ***Digər vergilər***

Digər vergilər özündə əmlak, torpaq, yol vergisini və ƏDV və digər vergiləri birləşdirir. Gəlir mənbəyində tutulan vergi, fiziki şəxslərin gəlir vergisi və sosial sığorta ödənişləri bura daxil deyildir.

| | | milyon AZN | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **Yekun** |
| Hökumətin cədvəli | 112.4 | - | 112.4 |
| Şirkətlərin cədvəli | 112.3 | 0.1 | 112.4 |
| **Fərq** | **0.1** | **0.1** | **-** |

Aşağıdakı cədvəldə şirkətlər tərəfindən ödənilmiş digər vergilər təfsilatı ilə qeyd edilmişdir:

| | **Hökumətin cədvəli** | **Şirkətlərin cədvəli** | **Fərq** |
|---|---|---|---|
| ƏDV | 75.2 | 75.1 | 0.1 |
| Əmlak vergisi | 25.0 | 25.0 | - |
| Torpaq vergisi | 10.9 | 10.9 | - |
| Digər xərclər | 1.3 | 1.3 | - |
| **Cəmi** | **112.4** | **112.3** | **0.1** |

ƏDV ödənişlərinə aid olan fərq öz hüquqi statusunu dəyişmiş iki yerli hasilat şirkətinin gecikdirilmiş vergi ödənişini əks etdirir. Məbləği Azərbaycan Respublikası Vergilər Nazirliyindən aldığımız təfsilatlı məlumata və əlaqədar şirkətdən aldığımız ödəniş sənədlərinə əsasən təsdiq etdik.

**Qeyd 15** ***Qiymət fərqi***

Bu, eksport edilən neftin büdcədə nəzərdə tutulmuş qiyməti və dünya bazarı qiyməti arasındakı fərqdən yaranan gəliri əks etdirir.

| | | **milyon AZN** | |
|---|---|---|---|
| | **təsdiq edilmiş** | **düzəliş** | **Yekun** |
| Hökumətin cədvəli | 345.8 | - | 345.8 |
| Şirkətlərin cədvəli | 345.8 | - | 345.8 |
| | **-** | **-** | **-** |

Fərq tapılmamışdır.

## HÖKUMƏT VƏ HASİLAT ŞİRKƏTLƏRİNİN HESABATLARININ XÜLASƏSİ (DÜZƏLİŞ OLUNMUŞ)

| Xarici Hasilat Şirkətləri | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hökumətin Hesabatı | | | | | Xarici Hasilat Şirkətlərinin Hesabatı | | | | | Fərq | | | | | Qeydlər |
| | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | |
| | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyo nAZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | |
| **Neft hasilatı üzrə pul vəsaiti** | 73,0 | | | | | 73,0 | | | | | - | | | | | **1** |
| **Qaz hasilatı üzrə pul vəsaiti** | 365,5 | | | | | 365,5 | | | | | - | | | | | **2** |
| **Xam neft** | | | 160,8 | | | | | 160,8 | | | | | - | | | **3** |
| **Səmt qazı** | | | | 3,513,137.7 | | | | | 3,513,137.7 | | | | | - | | **4** |
| **Təbii qaz** | | | | 6,489.3 | | | | | 6,489.3 | | | | | - | | **5** |
| **Qızıl** | | | | | 6.1 | | | | | 6.1 | | | | | - | **6** |
| **Gümüş** | | | | | 6.4 | | | | | 6.4 | | | | | - | **7** |
| **Bonuslar** | 2.0 | | | | | 2.0 | | | | | - | | | | | **8** |
| **ARDNF-a Nəqletmə tarifi** | 10.0 | | | | | 3.5 | | | | | 6.5 | | | | | **9** |
| **Akrhesabı ödənişlər** | 3.8 | | | | | 3.8 | | | | | - | | | | | **10** |
| **Mənfəət vergisi** | 1,828.3 | | | | | 1,828.3 | | | | | - | | | | | **11** |

| Yerli Hasilat Şirkətləri | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hökumətin Hesabatı | | | | | Yerli Hasilat Şirkətlərinin Hesabatı | | | | | Fərq | | | | | Qeydlər |
| | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | Dəyər | | Həcm | | | |
| | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | milyon ABŞ dolları | milyon AZN | nemb | Min m³ | Min unsiya | |
| **Royalti** | | 122.8 | | | | | 122.8 | | | | | - | | | | **12** |
| **Mənfəət vergisi** | | 90.3 | | | | | 90.3 | | | | | - | | | | **13** |
| **Digər vergilər** | | 112.4 | | | | | 112.4 | | | | | - | | | | **14** |
| **Qiymət fərqi** | | 345.8 | | | | | 345.8 | | | | | - | | | | **15** |

## 2010, 2011 VƏ 2012-Cİ İL HESABATLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

### Xarici Şirkətlərin hasilatında Hökumətin payı













Qızıl və gümüş
min unsiya
9
8
7
6
5
4
3
2
1
0
2010
2011
2012
Qızıl
8.4
7.4
6.1
Gümüş
5.4
5.0
6.4


Digər ödənişlər
mln ABŞ dolları
25.0
20.0
15.0
10.0
5.0
-
Bonus
Tranzit haqqı
Akrhesab ı haqq
2010
2.0
10.3
1.5
2011
20.0
9.5
1.7
2012
2.0
10.0
3.8


Mənfəət vergisi
mlin ABŞ dolları
2000
1800
1600
1400
1200
1000
800
600
400
200
0
2010
2011
2012
Mənfəət vergisi
972.2
1,734.0
1,828.3

## Yerli Şirkətlərin hasilatında Hökumətin payı




| | Royalti | Mənfəət vergisi | ƏDV | Əmlak vergisi | Torpaq vergisi | Digər vergilər | Qiymət fərqi |
|---|---|---|---|---|---|---|---|
| 2010 | 128.7 | 230.8 | 54.4 | 49.3 | 18 | 0.3 | 70.7 |
| 2011 | 127.2 | 177.8 | 127.6 | 24.9 | 13.5 | 0.3 | 197.2 |
| 2012 | 122.8 | 90.3 | 75.2 | 25.0 | 10.9 | 1.3 | 345.8 |

## ÜZLƏŞMƏ PROSESSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜÇÜN TÖVSİYƏLƏR VƏ QEYDLƏR

### HESABAT FORMASINDA ƏKS OLUNAN MƏLUMATLAR:

Hesabat Şablonunda verilən məlumatlar hasilat sənaye şirkətləri və hökumət agentlikləri tərəfindən edilən hər bir ödəniş və ödəniş üzrə daxilolmaları özündə əks etdirir.

Biz gələcək üçün aşağıdakı önəmli mərhələləri tövsiyə edirik:

- Hökumətin neft, səmt qazı, təbii qaz, qızıl, gümüş və mis hasilatında payını əks etdirəcək sətirlərin ayrı göstərilməsi
- Royalti də daxil olmaqla Vergilər əlavə vərəqdə göstərilməlidir
- ƏDV, Əmlak, Torpaq, Yol və s. kimi digər vergilər üçün əlavə sətirlərin daxil edilməsi
- Lazım olmayan xanaların hesabatdan çıxarılması
- Hökumətə pul və ya məhsul şəklində daxil olan ayırmaların aydın göstərilməsi üçün hesabatda əlavə sətirlərin göstərilməsi.

### TƏSDİQ EDİLMİŞ HESABAT ŞABLONLARI

MHŞT Qaydalarına əsasən Hökumət hasilat şirkətlərinin hesabatlarının audit edilməsinə əmin olmalıdır. (MHŞT Tələbləri/Qiymətləndirmə göstəriciləri 12 və 13). 2011-ci ilin 12 və 13-cü tövsiyələrinə əsasən MHŞT üzrə KomissiyaHökumət və şirkətlərin audit edilmiş hesablarının beynəlxalq standartlarına əsaslanmasına əmin olmalıdır.

Biz qeyd etdik ki, neft şirkətləri və Hökumət Agentliklərinəauditor tərəfindən təsdiq edilmiş Hesabat Şablonlarının təqdim edilməsi üçün heç bir təlimat verilməmişdir.

Gələcək illər üçün tövsiyyəmiz budur ki, Komissiya neft şirkətləri və hökumət agentlikləri tərəfindən təqdim edilmiş hesabatların təyin olunmuş kənar auditor (hasilat şirkətləri üçün) və ya ictimai müəssisə/orqan(Hökumət agentlikləri üçün) tərəfindən təsdiq olunmasına əmin olsun.

### TƏLİMLƏR VƏ SEMİNARLAR

Biz üzləşdirmə proseslərinin iştirakçıları üçün seminar və təlimlərin təşkil olunmasını tövsiyyə edirik. Bu məhsuldarlığın səviyyəsini artıracaq, hər il təkrarlanan və demək olar ki, eyni səhvlərin azalmasına səbəb olacaqdır.

### DİGƏR TÖVSİYƏLƏR

Biz Hesabat Formalarının Texniki Təlimat Kitabçasının yenilənməsini tövsiyyə edirik. Bu hesabatın doldurulması nümunələrinin və ildən ilə edilən ümumi səhvlərin aydın görülməsi üçün əlverişlidir.

Biz ildən-ilə hesabatları səhv təqdim edən şirkətləri qeyd edib və o haqda xəbər verməyi tövsiyə edirik. Onların əvvəlki ildəki təcrübələrinə əsaslanaraq əlavə şərh bildirmək daha faydalı olar.

**Əlavə 1**

**Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyanın Bəyannaməsi**

31 Dekabr 2012-ci il tarixində başa çatan il ərzində Azərbaycan Respublikası Hökumətinin ("Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan Əlavə 2-də təsnifatlandırılmış yerli və xarici şirkətlərdən (kollektiv şəkildə - "Şirkətlər") aldığı ödənişlərin/ayırmaların cədvəli MHŞT üzrə Hökumət Komissiyası, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və Əlavə 3-də təfərrüatı ilə verilmiş Qeyri Hökumət Təşkilatları arasında 24 Noyabr 2004-cü il tarixində imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("QAM") uyğun olaraq hazırlanmışdır.

MHŞT üzrə Komissiyanın Sədri

**Əlavə 2**

**Anlaşma Memorandumunun tərəfi olan mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərin siyahısı**

**Anlaşma Memorandumunun tərəfi olan şirkətlər**

| # | ŞİRKƏTLƏR |
|---|---|
| 1 | BP Eksploreyşn (Kaspian Sea) Limited |
| 2 | Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti |
| 3 | Total E&P Azərbaycan B.V |
| 4 | ITOCHU Oyl Eksploreyşn (Azərbaycan) Inc. |
| 5 | Statoyl |
| 6 | Türkiyə petrolləri A.O. (TPAO) |
| 7 | Komonvels Qobustan |
| 8 | Ekson Azərbaycan Limited |
| 9 | Hess (ACG) Limited |
| 10 | Lukoyl Oversiz |
| 11 | Şevron Xəzər LTD |
| 12 | Petro-HongKong-Pirsaat Oyl LTD |
| 13 | Salyan Oyl Limited |
| 14 | Karasu Əməliyyat Şirkəti |
| 15 | GDF SUEZ E & ABŞERON B.V. |
| 16 | Azgerneft BM |
| 17 | İnpeks Southwest Caspian Sea LTD |
| 18 | Binəqədi Oyl Əməliyyat Şirkəti |
| 19 | RAFİ OIL FİZE |
| 20 | Naftiran İntergrade Co LTD (NİCO) |
| 21 | Abşeron İnvestments Ltd |
| 22 | Şirvan Əməliyyat Şirkəti |
| 23 | Neftçala Əməliyyat Şirkəti |
| 24 | Azərbaycan İnterneyşnal Mayninq Kompani (AİMC) |
| 25 | Bahar Enerji |
| 26 | UGE-LANSER PTI. LTD |

**Əlavə 3**

**Anlaşma Memorandumunun tərəfi olan Qeyri-Hökumət Təşkilatlarının (QHT) və Fiziki Şəxslərin Siyahısı**

**Qeyri-Hökumət Təşkilatları**

| # | Qeyri-Hökumət Təşkilatları |
|---|---|
| **1.** | "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İB |
| **2.** | Eko - Renesans |
| **3.** | Demokratik Təsisatlar və İnsan Hüquqları İctimai Birliyi |
| **4.** | Avrasiya Hüquqşünaslar Assosiasiyası |
| **5.** | Xalça Dünyası Assosiasiyası (Quba şəhəri) |
| **6.** | Azəri – Ellada intellektual Mərkəz, sədr |
| **7.** | Qadın Problemlərinin Tədqiqatları Mərkəzi |
| **8.** | Qafqaz Beynəlxalq Strateji Araşdırmalar Mərkəzi |
| **9.** | “Sosial Təşəbbüslər və İnsan Haqları” İB |
| **10.** | İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi |
| **11.** | İqtisadi və Sosial İnkişaf Mərkəzi |
| **12.** | Gənclərin Elmi İnkişafına Dəstək İB |
| **13.** | İnsan Hüquqları və Maarifçilik İB |
| **14.** | “Tərəqqi” Sosial İnkişaf İB |
| **15.** | İqtisadi və Ekoloji Araşdırmalar Mərkəzi |
| **16.** | Demokratik Seçkilərə Dəstək Mərkəzi İB |
| **17.** | Demokratik Dəyərlər Müdafiə Fondu |
| **18.** | İctimai Maliyyə Monitorinq Mərkəzi |
| **19.** | Elmi- Texniki Tərəqqi və Təhsil Fondu |
| **20.** | “Sosial İqtisadi Araşdırmalar” İB |
| **21.** | Gender bərabərliyi İB |
| **22.** | Beynəlxalq Ekoenergetika Akademiyası |
| **23.** | “Tərəqqi” Sosial Tədqiqatlar Mərkəzi İB (İmişli) |
| **24.** | Jurnalistlər Ekstremal şəraitdə İ.B, sədr |
| **25.** | Demokratik İslahatlar Cəmiyyəti |
| **26.** | Multimediya İnformasiya və Texnologiya Mərkəzi |
| **27.** | Siyasi Plüralizm İnstitutu |
| **28.** | Region Səs qəzeti |
| **29.** | Humanitar Tədqiqatlar Cəmiyyəti |
| **30.** | Demokratiya Monitorinqi |
| **31.** | Mina Qurbanları Cəmiyyəti |
| **32.** | “Sağlam Həyata Doğru” İB |
| **33.** | Dalğa Gənclər Hərəkatı |
| **34.** | Qaçqın və Məcburi Köçkün Qadınların İnkişafı |
| **35.** | Dalğa Ekologiya və Təbiətin Qorunması İ.B |
| **36.** | Doğma Yurda Qayıdış IB |
| **37.** | Demokratiya və Qadın Təşəbbüsləri İB |
| **38.** | Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq |
| **39.** | Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İB |
| **40.** | “Ekoloji Ətraf Mühitin Qorunmasına Yardım” İB |
| **41.** | Müasir İnkişaf və Hüquqi Yardım Mərkəzi |
| **42.** | Regional İnkişaf və İnsan Hüquqları İB |
| **43.** | Transnəqliyyatın (nəqliyyatın) Komplaks Problemləri İnstitutut |
| **44.** | Azad İstehlakçılar Birliyi |
| **45.** | Azərbaycan İnşaat Assosiasiyası |

**Qeyri-Hökumət Təşkilatları (davamı)**

| # | Qeyri-Hökumət Təşkilatları |
|---|---|
| **46.** | "Proqres" İB, Gəncə |
| **47.** | Qadınlar arasında həmrəylik |
| **48.** | Demokratik İslahatçı Gənclər İB“ |
| **49.** | Yaşıllar Hərəkatı |
| **50.** | İqtisadi Tədqiqatlar Mərkəzi |
| **51.** | «Buta» Humanitar Uşaq Fondu |
| **52.** | Regional Maariflendirmə |
| **53.** | Regional İnsan Haqları və Sosial Araşdırmalar Mərkəzi |
| **54.** | “Güzəran” Sosial Araşdırmalar Mərkəzi |
| **55.** | İslam, Demokratiya və İnsan Haqları mərkəzi |
| **56.** | Ekoleks təşkilatı " |
| **57.** | Yerin dostları/Azərbaycan |
| **58.** | “Ümid" Humanitar və Sosial Dayaq Mərkəzi |
| **59.** | Regional “Qarabağ” Kənd Təsərrüfatı Assosiyasiyası İB |
| **60.** | Gənc Hüquqşünaslar Birliyi |
| **61.** | Gənclərin İnkişaf Mərkəzi |
| **62.** | "Xilaskar" İB |
| **63.** | “Finance" Şəffaf Büdcə İB (İmişli) |
| **64.** | Media İnkişaf Mərkəzi |
| **65.** | Demokratik İslahatlar Mərkəzi |
| **66.** | Iqtisadçı Ziyalılar Klubu |
| **67.** | "Əks- səda" Beynəlxalq Jurnalisit Tədqiqatları Mərkəzi |
| **68.** | “Aran Ekoloji Təhsil” İB |
| **69.** | Sivilizasiya Monitorinq və Araşdirmalar Ictimai Birliyi |
| **70.** | Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi) |
| **71.** | «Ekspert» iqtisadi jurnalı |
| **72.** | «Bilik» Cəmiyyəti (Gəncə) |
| **73.** | Demokratiyaya Yardim İB, |
| **74.** | Vətəndaş Maariflındirmə İ.B |
| **75.** | Gənc Nəslin Maariflәndirilməsi İB |
| **76.** | “Gələcək İnam” ehtiyacl olan insanlara qayğı İB |
| **77.** | Vətəndaşların əmək hüquqlarını müdafiə liqası |
| **78.** | Yevlax Regional İnkişaf Mərkəzi İB (Yevlax şəhəri) |
| **79.** | Azad Müəllimlər Birliyi |
| **80.** | "Ruzgar" Ekoloji İB |
| **81.** | Regionlarda Gənclərin Hüquqi Maariflәndirilməsi İ.B |
| **82.** | Gənc Jurnalistlərə Yardım Mərkəzi İB, |
| **83.** | “Vətəndaş Təşəbbüsü və Qanunların Təkmilləşdirilməsi Mərkəzi” İB |
| **84.** | "İnsan Haqqları-2003" İctimai Birliyi |
| **85.** | Demokrasiya və Qeyri-Hökumət Təşkilatıarının İnkişaf Resurs Mərkəzi (Naxçıvan şəh.) |
| **86.** | Gənc Milli Demokratlar Birliyi (Naxçıvan şəh.) |
| **87.** | Jurnalistlərin İqtisadi və Hüquqi Maariflәndirmə Mərkəzi |
| **88.** | "Qadın Dünyası" İB |
| **89.** | Gəncə Uşaq Fondu " |
| **90.** | Konstitusiya Fondu |

**Qeyri-Hökumət Təşkilatları (ardı)**

| # | Qeyri-Hökumət Təşkilatları |
|---|---|
| **91.** | Ahıl Ziyalılara Qayğı İ.B |
| **92.** | Demokratik Islahatlar Uğrunda Cəmiyyət |
| **93.** | XXI Əsr Təhsil Mərkəzi İctimai Birliyi |
| **94.** | Qafqaz Media Tədqiqatlar Mərkəzi |
| **95.** | "Free Person" Insan Hüquqlarının Müdafiə Cəmiyyəti |
| **96.** | İqtisadi Texnologiyalar İnstitutu |
| **97.** | Demokratik Təşəbbüslərə Dəstək Mərkəzi |
| **98.** | Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi |
| **99.** | Demokratik İnkişaf Platforması" |
| **100.** | “Hüquq Təşəbbüsləri Mərkəzi” İB |
| **101.** | “Azərbaycan Futbolunun İnkişafı Mərkəzi" İB |
| **102.** | Demokratiya ve Ekoloji Tarazlıq |
| **103.** | “Secki Tədqiqatları Mərkəzi” İ.B |
| **104.** | “Aqrar Sənaye Mühəndisləri” İB |
| **105.** | Beynəlxalq Münasibətlərin Araşdırılması |
| **106.** | Tacirlər və İstehsalçılar Birliyi |
| **107.** | Yaşlıların Təhsili Assosasiyası |
| **108.** | Xəzər Universiteti nəzdində Biznes Araşdırmalar Mərkəzi |
| **109.** | Neft Araşdırmaları Mərkəzi |
| **110.** | Təhsil Tədqiqatlar Mərkəzi İB |
| **111.** | “Saniyə” Humanitar İnformasiya Analitik Agentliyi |
| **112.** | “Elektron Seçki" İB |
| **113.** | İqisadi İnnovasiya Mərkəzi |
| **114.** | Bərabər İmkanlar Mərkəzi |
| **115.** | "İnam" Plüralizm Mərkəzi |
| **116.** | Vətəndaş Cəmiyyətinin Quruculuğuna Yardım Mərkəzi (Ağstafa) |
| **117.** | HVA Reqional bölgəsi (Gəncə) |
| **118.** | Azərbaycan Sağlam İnkişaf İB |
| **119.** | Sosial- İqtisadi Hüquqlar üzrə Təlim- Monitorinq Mərkəzi |
| **120.** | "ELS" Mustəqil Arashdirmalar Mərkəzi |
| **121.** | “İnkişafa Baxış” Araşdırma Mərkəzi İB |
| **122.** | "Qarabağ Əlillərinə Qayğı" Cəmiyyəti |
| **123.** | Eko- Aləm İB |
| **124.** | İnsan Hüquqları XXİ əsr-Azərbaycan Fondu |
| **125.** | “Gənclər Klubu” İ.B |
| **126.** | Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi |
| **127.** | Aran İnsan Hüquqları Resurs Mərkəzi |
| **128.** | Azad İqtisadiyyat Mərkəziİqtisadi Jurnalistika Mərkəzi |
| **129.** | “İnsan Hüquqları və Qanunların Təbliği” İB |
| **130.** | "Ulduz" Elektron Təşkilatı |
| **131.** | "Gənc Şairlərə Dəstək" İB |
| **132.** | “Vətəndaş Cəmiyyəti İnstitutu” İB |
| **133.** | Iqtisadi Jurnalistika Mərkəzi |
| **134.** | “İşgəncələr Əleyhinə Araşdırmalar İB |
| **135.** | Bizim Ümumi Evimiz |

**Qeyri-Hökumət Təşkilatları (davamı)**

| # | Qeyr-Hökumət Təşkilatları |
|---|---|
| **136.** | Gənc Sahibkarlar Klubu İ.B. |
| **137.** | "Regional Qadın Təşəbbüsləri" İctimai Birliyi |
| **138.** | Regional İnsan Hüquqları və Media Mərkəzi İ.B |
| **139.** | "Rəqəmsal İnkişaf" İB |
| **140.** | Regional Gender Mərkəzi İ.B |
| **141.** | Zəngilan" İ.B |
| **142.** | Su İstehsalçıları İ.B |
| **143.** | Ekoloji Balans İ.B |
| **144.** | Qarabağ Döyüşçüləri Assosasiyası |
| **145.** | Yol İnşaat Monitorinq Mərkəzi |
| **146.** | Regional İnsan Hüquqları və Maarifləndirmə Mərkəzi |
| **147.** | Sivilizasiya və Maarifçilik İ.B (Naxçıvan şəh) |
| **148.** | Genmühəndisliyi ilə bağlı MaarifləndirməİB |
| **149.** | "Muğan İnsan Hüquqlarının Müdafiəsi" İB |
| **150.** | Demokratik İnkişafda insan hüquqları, seçkilər və mətbuat monitorinqi |
| **151.** | Demokratik Təşəbbüslər və Sosial İnkişaf İB |
| **152.** | Sosial və Mədəni İnkişafa Yardım İB |
| **153.** | Müasir Qadın və Cəmiyyət İB |
| **154.** | Azərbaycan Insan Hüquq və Azadlıqlarının Müdafiəsi Komitəsi |
| **155.** | Mədəniyyətlərin Təbliği və Xalq Yaradıcılığına Dəstək İB |
| **156.** | Vətəndaş Təşəbbüsləri Dəstəkİ.B |
| **157.** | "Məşəl" İB |
| **158.** | "İqtisadi və Sosial Maarifləndirmə Mərkəzi" İB |

**Fiziki şəxslər**

| # | Fiziki səxslər |
|---|---|
| **1.** | Arzu Soltan |
| **2.** | Bəkirzadə Şəbnəm |
| **3.** | Dünya Sakit |
| **4.** | Əliyev Elmidar |
| **5.** | Həmidova Hicran |
| **6.** | Hüseynli Fikrət |
| **7.** | İbrahimov Zaur |
| **8.** | İsayev Samir |
| **9.** | Mövsümov Şamil |
| **10.** | Musayev Ceyhun |
| **11.** | Paşayeva Sədaqət |
| **12.** | Səfərov Afiq |
| **13.** | Seyidova Süheylə |
| **14.** | Xəlilov Ruslan |